# Cəzaçəkmə mühitinə adaptasiyanı şərtləndirən psixoloji amillər

**Aytən Fətullayeva**
*Bakı Dövlət Universitetinin dissertantı*
**E-mail:** Psixoloqfetullayeva_6891@yahoo.com

**Rəyçilər:** psixol.ü.f.d., dos. U.M. Qəzvini,
psixol.ü.f.d., dos. M.S. Əliyev

**Açar sözlər:** məhkum şəxsiyyəti, cəzaçəkmə mühiti, islah etmə, məhkumun adaptasiyası və yenidən adaptasiyası

**Ключевые слова:** личность осужденного, тюремная среда, исправление, адаптация и переадаптация осужденного.

**Key words:** personality of convict, prison environment, correction, adaptation and readaptation of convict.

Adaptasiya problemi öz aktuallığı və mürəkkəbliyi ilə fərqlənən problemlərdən biri kimi tədqiqatçıların müxtəlif aspektdən araşdırma mövzusu olaraq psixologiya elminin müxtəlif sahələrində — sosial psixologiya,ümumi psixologiya, idarəetmə, hüquq, tibbi və s. diqqəti cəlb edən problemlərdən biri olmuşdur. Fərdin sosial mühitə adaptasiyasından danışdıqda bir qayda olaraq adaptasiya anlayışından istifadə edirlər. Adaptasiya — latın dilindən (adaptatio) lüğəti mənada tərcüməsi uyğunlaşma deməkdir, yəni ətraf mühitin tələbinə uyğun olaraq orqanizmin və ya fərdin dəyişilməsidir. Insan adaptasiyasının iki aspekti var: bioloji və psixoloji. Adaptasiya prosesinə psixoloji aspektdən yanaşdıqda fərdin cəmiyyətin eləcə də öz ehtiyaclarına, motivasiyası və maraqlaraına uyğun olaraq mövcud mühit şəraitinə fəal uyğunlaşma prosesi nəzərdə tutulur. Adaptasiyanın əsas təzahürü insanın ətrafında olan insanlarla qarşılıqlı əlaqədə olması eyni zamanda aktiv fəaliyyətidir. Adaptasiya olmadan ətraf mühitlə qarşılıqlı ünsiyyətdə olmaq və ya ona təsir göstərmək mümkün olmur. Adaptasiya nisbidir, yəni bu və ya digər uyğunlaşma müəyyən mühit şəraitində əlverişli olur. Cəzaçəkmə mühitinə adaptasiya azadlıqdan məhrum edilmiş şəxsin yaş amili, xarakterik keyfiyyətləri, intelektual səviyyəsi, maraq və meyilləriylə bilavasitə əlaqədardır. Bu kimi keyfiyyətlərin təsiri nəticəsində şəxsdə mühitə adaptasiya fərdi xarakter daşıyır. Cəzçəkmə mühitinə adaptasiya prosesinin neqativ və ya pozitiv istiqamətli olması şəxsin motivasiya yönümlü xüsussiyyətləri ilə bilavasitə bağlıdır. Məhkum pozitiv adaptasiya zamanı müsbət istiqamətli qruplara qoşulur, rejim tələblərinə uyğunlaşır, ictimai təşkilatların eləcə də dəstənin tədbirlərində yaxından iştirak edir. Bu halda güman etmək olar ki, onda müsbət maraqlar, istəklər, cəhdlər, münasibətlər, məqsəd və həyat planları möhkəmləndirilmiş olur. Məhkum neqativ adaptasiya zaman isə mənfi və ya dəyişkən yönümlü qruplara daxil olur, hansı ki, bu qruplarda neqativ keyfiyyətləri özündə möhkəmləndirməklə cinayətkar yönümlü oriyentasiyasının möhkəmləndirilməsinə imkan yaradır. Xarici psixoloqların elmi araşdırmalarına görə (O.Frankl, A.İ.Papkin, V.İ. Pozdnyakov) cəzaçəkmə müəssisəsinə adaptasiyanın ilkin mərhələsi ən çətin mərhələ hesab edilir. Bu mərhələdə məhkumlar yeni davranış və normlardan irəli gələrək çoxsaylı çətinliklərlə rastlaşırlar, bu dövrdə şəxsiyyətlərarası münasibətlərin istiqaməti, daxili intizam qaydalarına münasibət və müəyyən qruplara yönəlməklə bir növ yeni davranış strategiyasını formalaşdırmış olurlar. Bildiyimiz

kimi insan beyninin inkişafında psixoloji mühitin təsiri əsas amil kimi götürülür. Məhkumun cəzaçəkmə mühitinə adaptasiya prosesində cəzaçəkmə müəssisəsinin növü, şəxsin birinci və ya təkrar cinayət törətməsi, yaş mərhəsi, məhkumluğa qədərki həyat tərzi, maraq və meyillləri və s. kimi amillərin adaptasiya prosesinə müsbət və mənfi yöndən təsiri vardır.

Beləliklə, cəzaçəkmə mühitinə məhkumların adaptasiya mexanizmləri cinayətkar şəxsiyyətin ümumi psixoloji vəziyyətinin normallaşdırılmasına istiqamətlənən kompleks tədbirləri özündə əks etdirməlidir ki, bu tədbirlər də həmin fərdin cəmiyyətə könüllü surətdə reinteqrasiyası üçün əsas yaratmaq məqsədinə xidmət edir. Bundan başqa, bu kompleks tədbirlər şəxsiyyətlə cəzaçəkmə mühiti arasındakı qarşılıqlı təsirin strukturu ilə, eyni zamanda məhkumun qarşıda yaşayacağı yeni dünyasının yaranması prosesində fəaliyyət və ünsiyyətin subyekti kimi müəyyən edilən cəza çəkmə şəraitini psixopedaqoji cəhətdən təmin etməlidir [4].

Lakin azadlıqdan məhrum olma şəraitində məhkumun həyatı aydın həyat perspektivlərinin yoxluğu ilə xarakterizə olunur ki, bu da həyati aktivliyin azalmasına, yaranmış vəziyyətdə kifayət qədər səbrli olmamağa gətirib çıxarır. Buna görə də azadlıqdan məhrum olma şəraitində məhbusların adaptasiyası və onun psixoloji təminatı işində xüsusi və perspektiv istiqamət səviyyəsi azadlıqdan məhrum olma və dezadaptiv vəziyyətlərin profilaktikası şəraitində psixogen faktorların təsiri nəticəsində aşağı enir. Bizim fikrimizcə, bu istiqamət aşağıdakı üsullar vasitəsilə reallaşa bilər:

— cinayətkar şəxsiyyətin sosial-hüquqi davranışın səbəbi olan psixoloji xüsusiyyətlərinin strukturuna onun kriminogenliyini aradan qaldırmaq və ya azaltmaq, həyati tələbatlarını və maraqlarını qanuna tabe olaraq ödəməyə hazırlığını formalaşdırmaq məqsədilə məqsədyönlü psixoloji təsir prosesi kimi islah edici psixoloji korreksiya üsullarından istifadə etmək;

— azadlıqdan məhrum olma yerlərində cəza çəkmə şəraitində subyektiv psixogen faktorların aradan qaldırılmasına istiqamətlənmiş fəaliyyətin aktivləşdirilməsi;

— müxtəlif rejimli islahetmə müəssisələrinin rəhbərlik və əməkdaşlarının işinin məhkumlarla fərdi tərbiyəvi işin prinsipləri əsasında təşkil edilməsi;

— islahetmə müəssisələrinin cəza çəkmə sistemində müəyyən qrup şəxslərlə mövcud iş formalarının dəyişilməsi zərurəti ilə əlaqədar olaraq məhkumlarla yeni və optimal cəhətdən səmərəli proqramların, metodların və iş texnikalarının tətbiq edilməsi və onlardan istifadə.

Buna görə də müasir cəza-icra sistemində məhkum şəxsiyyətinə təsir metodları adaptasiyanın uğurlu olmasına heç bir imkan yaratmır, əksər hallarda isə cinayətkar şəxsiyyətin psixoloji və kriminoloji keyfiyyətlərinin bir-birinə uyğun gəlməsi dezadaptasiyaya və əsəb-psixi pozuntulara səbəb olur.

Cəzaçəkmə mühitinə adaptasiya prosesi o zaman baş verir ki, bu prosesdə yuxarıda sadalanan faktorların təsiri öz izlərini və xüsusiyyətlərini buraxaraq təzahür edir. Konkret mühitdə psixogen təsirin real xarakterinin dərin və hərtərəfli təhlili ödənilməyən tələbatlar nəticəsində yaranan ən dərin yaşantıların, onların bu və ya digər dərəcədə adekvat şəkildə ödənilməsində və ya situasiyanın konstruktiv şəkildə yenidən dəyərləndirilməsində köməklik göstərilməsi üçün imkanlar axtarışının təhlilinə və tədqiqinə uyğun gələn, eyni zamanda məhbusların psixikasına bu göstərilən təsirlərin səviyyəsinin azaldılması işi üzrə tədbirlər və metodlar sistemini işləyib hazırlamağa imkan verir.

Beləliklə, cəzaçəkmə mühitində məhkumların yüksək səviyyədə islah edilməsinin və adaptasiyasının psixoloji sabit formada təmin olunması üzrə iş sistemində əsas hissə onların adaptasiya xüsusiyyətlərinin diaqnostikası və ya dəyərləndirilməsidir ki, bu xüsusiyyətlərin inkişafı cəzaçəkmə sistemində penitensiar psixoloqların fəaliyyətinin mühüm məsələlərindən

biridir.

Çox mərhələli və müxtəlif tərəfli proses kimi cəzaçəkmə mühitində məhkumların adaptasiyası prosesinin cinayətkar şəxsiyyətin bütün islah etmə prosesində uğurla həyata keçirilməsi və sonrakı islah etmə prosesində səmərəli olması üçün həlledici əhəmiyyətindən irəli gələrək çox ciddi diqqət və hərtərəfli psixoloji təminat tələb edir. Bu proseslərin əsasında bir çox hallarda adaptasiyanın uğurlu olmasının səbəbi olan şəxsiyyətin adaptiv xüsusiyyətləri durur. Lakin şəxsiyyətin mühitə adaptasiya olunma xüsusiyyətləri onun bu mühitdə baş verən fəaliyyətin dəyərlərini avtomatik şəkildə qəbul etməsini bildirmir, lakin digər tərəfdən bu fəaliyyətin səmərəliliyi onun baş vermə və təşkili şəraitinə davamlı adaptasiya olmadan mümkün deyil.

Bu kateqoriyanın öyrənilməsi üçün artıq nəzərdən keçirmiş olduğumuz "şəxsiyyətin adaptasiya xüsusiyyətləri" və "azadlıqdan məhrum olma şəraitində psixogen faktorlar" anlayışlarından başqa məhkum şəxsiyyətinin adaptasiya, dəyər-məna və tələbatlar sferasının motivasion əsaslarının təhlili də lazımdır.

Bütün bu komponentlər arasındakı qarşılıqlı təsir və qarşılıqlı əlaqənin tədqiq olunması cəzaçəkmə mühitində məhkum şəxsiyyətinin adaptasiyasının psixoloji cəhətdən təmin olunmasının maksimal səmərəli sistemlərinin yaradılması üzrə işin sonrakı perspektiv istiqamətlərini təşkil edir. Məhkumun cəmiyyətin tamhüquqlu üzvü kimi onun verilmiş konkret mədəniyyətdə qəbul edilən əxlaqi-psixoloji keyfiyyətlərin tələblərindən irəli gələn sonrakı resosializasiyası baxımından islah edilməsi üçün şəraitin və faydalı zəminlərin yaradılması vacib məsələdir.

**Məqalənin aktuallığı.** Adaptasiya öz əhəmiyyəti və mürəkkəbliyi ilə fərqlənən problemlərdən biri kimi daim tədqiqatçıların diqqət mərkəzində olmuşdur. Cəzaçəkmə mühitinə adaptasiya məsələsi isə özünün spesifik xüsusiyyətləri ilə fərqləndiyindən, məqaləni aktual hesab etmək olar.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə azadlıqdan məhrum edilmiş şəxsin cəzaçəkmə mühitinə adaptasiya olunması sahəsində xarici psixoloqların elmi araşdırmalarının nəticələrinə müraciət olunmuş, azadlıqdan məhrum olma şəraitində məhbusların adaptasiyası və onun psixoloji təminatı işində psixogen faktorların təsiri məsələlərinə toxunulmuşdur.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən praktik psixoloqlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Исследование выполнено в рамках реализации ФЦП 1. «Научные и научно-педагогические кадры инновационной России», ГК № П 2408.

2. Шиханцов Г.Г. Юридическая психология. М., 2000.

3. Лебедев В.И. Личность в экстремальных ситуациях. М., 1989.

4. Ананьев Б.Г. Человек как предмет познания. СПб., 2001.

**А. Фатуллаева**

## Психологические аспекты адаптации осужденного в условиях исполнения наказания

## Резюме

В статье рассмотрены и проанализированы процессы адаптации и переадаптации личности преступника в условиях исполнения наказания. Выделены особенности и направления деятельности, ориентированные на повышение уровня исправления и перевоспитания осужденных. Определены основные проблемы пенитенциарной психологии в области коррекционного воздействия. Дана характеристика процессов адаптации осужденных и определены основные моменты реализации работы по психологическому сопровождению личности и поведения осужденного.

**A. Fatullayeva**

## Psychological aspects of adaptation of convicts in conditions of execution of punishment

## Summary

In the article the processes of adaption and readaption of the convicts in the conditions of the execution of the punishment are considered and analyzed. The features and the directions of activity focused on increasing level of correction and reeducation of convicts are distinguished. The basic problems of penitentiary psychology in the field of correction influence are defined. The characteristic of adaption processes of the convicts are given and the main moments of realization of the psychological support of personality and behavior of convict are defined.

**Redaksiyaya daxil olub:** 28.02.2019